Qoşqar Narqabilin həyat və yaradıcılıq etüdləri

Müasir özbək ədəbiyyatının tanınmış ədəbi simalarından biri də publisist, yazıçı, şair, dramaturq, Özbəkistan Yazıçılar Birliyinin üzvü Qoşqar Narqabildir (Kuçkor Norkobil).

1992-ci ildən Daşkənd Milli Universitetinin jurnalistika fakültəsində ali təhsilini tamamladıqdan sonra müxtəlif mətbu orqanlarında: "Türküstan", "Özbəkistanın səsi", "Xalq sözü" qəzetlərində və "Səadət" jurnalında müxbir işləmişdir. Hazırda Özbəkistan Respublikası Ədliyyə Nazirliyinin "İnsan və qanun" qəzetinin baş redaktoru vəzifəsində çalışır. Özbəkistan Respublikası Dövlət və Cəmiyyət Quruculuğu Akademiyasının məzunudur (2004-2005).

Qoşqar Narqabil (Kuçkor Norkobil, Qo?chqor Norqobil) yaradıcılıq aləminə 80-ci illərin sonlarında gəlmişdir. O elə ilkqələm təcrübələri: "İntiqam", "Əsir", "Qan", "Çayın arxasınca ağı" hekayələri ilə çox tez məşhurlaşdı. "Çayın arxasınca ağı" hekayəsində həyati hadisələr böyük ustalıqla təsvir edilib. Əfqanıstan torpaqlarında əsgəri xidmətdə (1986-1988) olarkən gözləri ilə gördüyü, başına gələn ağrılı və faciəvi günləri müəllif məharətlə ifadə edə bilmişdir. Oxucuları arasında əl-əl gəzən bu əsər (bir neçə dəfə 50.000 tirajla nəşr olunmuşdur) 1996-cı ildə Respublika Gənclər Təşkilatının "Osman Nasir adına mükafat"ına layiq görülmüşdür.

Qoşqar Narqabil "Ovcumdakı qırmızı lalə", "Xasiyətli dünya", "Pəncərədəki çiçək" adlı şeir, "Çayın arxasınca ağı", "Gülüb dayan, sevdiyim", "Günəşi kim oyatdı?", "Gözlərini görməyə gəldim", "On səkkizə girməyən "mən" var", "Əfqanıstan: 2-ci rota"nəsr və bir çoxbaşqa dram və publisistika kitablarının müəllifidir.

Onun "Göy üzündəki sirr", "Bu yerlərdə həyat başqadır", "Yer yarılmadı", "Ürəkdəki yük", "Yeni il gecəsində", "Səmadil", "Mənə pul gəldi", "Döyüş", "Zaman", "Ömür şamındakı nur", "Tipik heykəl", "Yaz günlərinin birində", "Dost kimdir?", "Nüsxə", "Artist", "Günəş mənə gül uzatdı", "Ertəsi gün bazar ertəsi idi", "Ana", "Döyüşün üzü" və s. onlarla hekayələrini oxucuları maraqla qarşılamışlar.

"Taleyin sınaqları", "Günəşi sən oyadırsan", "İşıq kölgədə qalmaz", "Uğur biz tərəfdədir", "Suyu görmədən arxı keçmə", "Yerindən uzağa getmə" adlı dram əsərləri paytaxt və vilayət, hətta xarici ölkə teatrlarında səhnələşdirilmişdi.

Qoşqar Narqabil ədəbi aləmdə olduğu 30 illik fəaliyyəti ərzində ustad sənətkar səviyyəsinə yüksələ bilmişdir.

2001-ci ildə "Özbəkistanda xidmət göstərən jurnalist", 2017-ci ildə "İlin dramaturqu" fəxri diplomlarına layiq görülmüşdür. Bu yazıda bir-bir sadalamasaq da, yazıçı-dramaturq müxtəlif illərdə bir çox mükafatlara layiq görülmüş, müxtəlif nominasiyaların qalibi olmuşdur.

2018-ci ilin 23-26 noyabr günlərində Tailandda keçirilən "Avroasiya - 2018" VII Beynəlxalq ədəbiyyat festivalına Özbəkistandan iki nəfər laureat seçilmişdi. Bir ailədən iki nəfər: Qoşqar Narqabilin müharibə mövzusunda yazdığı "Biz döyüşdən qayıtmadıq" povest və silsilə hekayələri həmin festivalda "Dünya generalları sülh üçün" beynəlxalq assosiasiyasının "Dünya xalqları arasında sülh və həmrəylik sahəsindəki yüksək fəaliyyətinə görə" nominasiyasına layiq görüldü. Həmin məclisdə yazıçının həyat yoldaşı, "Şöhrət" medallı şairə, publisist, dramaturq, tərcüməçi Xasiyət Rüstəmə də poeziya nominasiyasında "Kəpənək mahnısı" mükafatı təqdim olundu.

* * *

Qoşqar Narqabil ədəbi mühitdə ilk olaraq nəsr ustası kimi tanınsa da, ədəbiyyata şeirlə gəlmişdir.

Gerçək məsum ruhum,
üsyanım...
Amma uşaqlığım ölməyib.
Bir uşaq var mələk simalı,
Heybələri otla dolmamış.

İlk kitabı bir şeir tablosu olmuşdu. Amma həyat gənc şairin qarşısına gözlənilmədən elə çətinliklər çıxardı ki, onları şeirlə ifadə etmək mümkün olmadı. Ömrünün "Əfqanıstan illəri"nə həyatın qisməti demək olarsa, o qismət Qoşqar Narqabilin yaradıcılıq platformunda yeni səhifələr açdı, təxəyyülündə yaşatdığı lirik-romantik duyğuları, həyat eşqi anlayışını dəyişdirdi. Şeir yazmaq, şeirlə ovunmaq başqa bir şeydir, bir qızın nazını çəkmək qədər xoş əzabdır. Sözsüz ki, heç bir yazar, heç bir qələm əhli, hətta tədqiqatçı belə, yazı masası arxasına keçərkən çox vaxt əvvəlcədən planlaşdırdığını yaza bilmir və ya konkret bir məqsədlə qələmi əlinə almır. Çox vaxt qələmin ardınca gedən sən olursan, qələmi sən idarə etsən belə - gerçəklik budur. Elə bu məqamların, bu ovqatın özü şeirdir.

Könülləri qucaqlayıb bağça titrəyər,
Köhnə duyğulardan ürək oyanar...
Dumanlı gecəsi yaxın...
göy yaxın.
Ulduzlar işığı xatirədir qəşəng,
Bağçanı titrədib dayanır şimşək -
Mənim axtardığım - şair uşaqlıq...

Amma məlumdur ki, bəzən qələm sahibi elə hadisələr qarşısında heyrətdə qalır ki, onları bəyan etməyə şeirin hüdudları imkan vermir. Şeir yazanda lirik-poetik bir lövhə cızırsansa, hekayə və ya roman yazanda geniş bir tarlada - meydanda ilham atını oynadırsan; dram - səhnə əsəri yazanda isə hadisələrin müşahidəçisinə, müşahidə zamanı qazandığın ədəbi etüdlərin, müxtəlif səslərin, rənglərin, zövqlərin, geyimlərin, üz cizgilərinin - mimikaların, xarakterlərin ifaçısına çevrilirsən.

Qoşqar Narqabilin yaradıcılığına yaxından bələd olduqdan sonra belə bir qənaət içinə dolur: onu ədəbi aləmə atan yaşadığı - qarşılaşdığı ölüm-itimli günlər olub. Əfqanıstanın barıt qoxuyan həyatı yaradıcılıq istəyi ilə çırpınan bir gəncin qələmini qalxana çevirdi, onun ruhunu gözünün qabağında can verən əsgər dostlarınıncansız bədəni sarsıtdı.

Qoşqar Narqabil əsgəri xidmətə yollananda tələbə idi. Daşkənd Milli Universitetinin jurnalistika fakültəsində təhsil alırdı. Yəqin ki, istedadı onu daha çox jurnalistikanın ən fəal sahəsi olan publisistikada məşhurlaşdıracaqdı və beləcə jurnalist qələminin işığı ilə şeir yolunda bərkiyəcəkdi - eşq dolu misraları əl-əl gəzəcəkdi. Yazıçılıq yolunu isə dramaturqluğu kimi daha sonralar seçəcəkdi.

Amma bəzən həyat insanı sürprizlərlə qarşılayır. Qoşqar Narqabilin nəsr və poeziya yaradıcılığında qırmızı bir xətt var: Əfqanıstan ağrıları. Hər gün səmasından yağış, qar əvəzinə güllələr yağan, gözəl təbiətindən gül-çiçək ətri əvəzinə barıt qoxusu gələn bir məmləkətdə əsgəri xidmətə - Vətənə oğul borcunu verməyə göndərilmişdi. Məlumdur ki, əsgərlər hərbi hissəni - yollandıqları səmti, bölgəni, şəhəri, kəndi, dağı, daşı, təpəliyi özləri seçmirlər. Hansı səmtə əsgərlazımdırsa, ora göndərilirlər. Amma ölkələrin siyasi məsələləri bəzən gizlin fürsətlər də verir. O zaman gənclər - əsgərlər Vətənin silahı, döyüşən ruhu, vuranəliolurlar. Yollandıqları bölgələrin ünvanını isə "polevoy poçt" və həmin hərbi hissənin nömrəsi" kimi bilirlər.

Qoşqar Narqabil də Vətən borcunu - əsgəri xidmət borcunu ödəyəcəyi yeri sonradan bildi. Bu gün "əfqan döyüşçüləri", "əfqançılar" - deyə tanıdığımız cəbhədaşları kimi sirli, gizli bir əsgər həyatı yaşamışdı. Əgər bunu yaşamaq adlandırmaq olarsa - hər gün, hər an min dəfə ölüb-dirilirdilər.

Ölüm tələ qurur - sezdim
anidən göz bağlamasını.
Şəfqətsiz olaraq yarpaqlar səpdi
payız ürəyimin başına...

Daşkəndə yolum düşəndə kitab mağazasından bir neçə kitab almışdım, onlardan biri də Qoşqar Narqabilin "Günəşi kim oyatdı?" povest və hekayələr toplusu idi.

Oxumaq üçün, tədqiqatım üçün lazım olacaq, "növbə gözləyən" kitablarımın üstünə qoymuşdum. Bir müddət sonra kitabı əlimə götürdüm. Çox tanış bir mövzuda olduğunu, həm də xatirə-memuar janrında yazıldığını gördüm.

İlk sətirlərindən ruhumu qarsaladı. Mənə çox yaxın bir mövzu idi. 1990-cı ilin 20 Yanvarında Bakıda törədilmiş qanlı gecədə 20 yaşında şəhid olmuş şair-tələbə Ülvi Bünyadzadənin "Ömür yolu" poeması və "Qansızlar" povestinin mövzusunun eyni idi. Azərbaycanda da "əfqançı"lar deyilən bir döyüşçülər birliyi var. Orta məktəb illərində birgə oxuduğum tay-tuşlarım arasında Əfqanıstanda hərbi xidmətdə olan "əfqançılar" vardı, onların psixologiyasına az-çox bələd idim. Bir də bildiyim o idi ki, orada xidmət edənlərin çoxu evlərinə tabutda "dönürdülər". Həm də o tabutda onların nəşi (cəsədləri) yox, ağır "kubik" daşlar olarmış.

Bütün bunların tam təfərrüatını Ülvinin yuxarıda adlarını çəkdiyim əsərlərindən, sonra da eşitdiyim-bildiyim söz-söhbətlərdən bilirdim (yeri gəlmişkən, Ülvi Bünyadzadənin "Ömür yolu" poemasını Xasiyət Rüstəm özbək dilinə çevirmişdi (2014). Həmin tərcümə doqquz dildə nəşr olunan "Ömür yolu" kitabına daxil edilərək çap edilmişdir - Bakı, 2016). Təsadüfə baxın ki, illər öncə ölüm-dirim müharibəsində "Vətən borcu ödəyən" bir ərin yolunu həsrətlə gözləyən Xasiyət xanım ürəyini didib-parçalayan mövzuda yazılmış əsəri tərcümə edib, çox üzüldüm).

İndi əlimə götürüb oxumağa başladığım Qoşqar Narqabilin "Günəşi kim oyatdı?" memuar - gündəliyinin bütünlüklə mövzusu tam "əfqan" teması idi.

Günəş çıxmamış, amma
hava çox soyuq...
Ağ bayraq məbləğ -
halsızlanar qış...
Ağaclar qaş-qabağını tökər.
Sinəsində qalxan
Növruzgülü çıxmaqda.
Təslim ol! Döyüş!...
Bir hovur dincini lirik lövhələrlə alır.
Qızın qucağında yuyundu çay,
Günəş əriməkdə suyun içində.

Lirik-romantik duyğular. İnsanı hər qayğıdan, dünyanın hər cür qarışıq rəngindən sıyırıb çıxaran şairlik təbi yeri gəldikcə yazıçı qələminə qalib gəlməyi bacarıb.

Qoşqar Narqabilin təbirincə desək, "şeir yazan Qoşqar dram yazan Qoşqar ola bilməz. Bunun sirri mənim üçün də sirlidir, gizlidir. Məlum ki, şeir tam fərqli bir şeydir, teatr üçün yazılmış əsər isə tam fərqli dünyadır. Səhnə əsərində dramaturq xəyalpərəst olsa da, bir az realist olmalıdır. Şeir isə səndən xəyalpərəst olmağı tələb edir. Cinki şeir gizli prosesdir və o xəyal gücü ilə dərk edilir. Tamaşa üçün yazılmış əsər zəka ilə hissin məhsuludur, qəlbin duyduğu bir şeydir. Dramaturq xəyalında doğulmuş hadisələri şeirə çevirsə, həmin poetik lövhə dünya həqiqətlərinin gündəlik qeydlərinə bənzəyə bilər. Mən birinə nifrət etsəm, onu şeirə köçürə bilərəm, amma şeirdə ona nə üçün nifrət etməyimi yaza bilmirəm. Bu səbəb isə yalnız daha geniş əsərdə özünü göstərə bilir".

Bax o ölümlü-itimli "xidmətdən" sağ-salamat dönən Qoşqar Narqabil bir ömür boyu içindən qova bilməyəcəyi, yaddaşında, xatirələrində çözələndikcə çözələnən ağrılar, bitməz-tükənməz mövzular, ağrısından qurtula bilmədiyi hadisələrdən yazır. Bir xatirəni yazıb bitirməmiş başqa bir xatirənin baş qaldırıb içini qanatdığına şahid olur.

"Əfqanıstan mövzusu! Nədən və hansı səbəbdən bu mövzuda kitab yazdınız". Bu sualın cavabını "Günəşi kim oyatdı?" kitabında tapdım: "Çox acı bir sualdır. Mənim ən gözəl gənclik illərim Əfqanıstandakı faydasız-gərəksiz döyüşlərdə keçdi. Yüzlərlə gənc dostlarımı - əsgər dostlarımı oralarda itirdim. Biz hələ çox gənc idik, ölüm-itimin, topun-tankın nə olduğunu bilmirdik. Belə bir yaşda ölümün içinə girdik, insanın necə bir vəhşi hala gələ biləcəyi məqamları gördük. Nə yerli xalq, nə də biz döyüşçülər bunun haradan və nədən başlandığını bilmədik. Amma hər gün döyüşürdük. Xatirələr də insanla bərabər yaşayır. O xatirələrim məni heç buraxmadı. Ölüm və sülh! Bu iki sözün məna və dəyəri nədir? Bu iki sözün cavabını tapmaq üçün yazdıqca yazıram, nə bitir, nə də tükənir. Axşamüstü idi, döyüşdən qayıtmışdıq, hamımız dincəlirdik. Birdən bir güllə gəlib kəmərimin kiçik dəmir halqasına toxundu və ilişib orada qaldı. Hamımız şok vəziyyətində idik. Əgər o güllə bir millimetr o yan-bu yana toxunsaydı, mən öləcəkdim.

Bax o zamandan Uca Allahın var olduğuna güvəndim. Bunları yazmadan yaşamaqdan ölüm daha betər olur. Həmin xatirələri yazıram, yəni əslində o xatirələrin içində yaşayıram".

Bir azca dayan havada güllə
Bir azca dincəl
Buz kimi həsrət.
Başımızda donub qalmasın səma
Nəfəs almağa ver
Bir anlıq fürsət...

Ardı var

Almaz Ülvi (Binnətova)